**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№328/6** **23 fevral 2021-ci il**

**2020-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilin hazırlanması barədə**

Auditorlar Palatasının 2021-ci il üzrə iş planının 3.1-ci “2020-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilin hazırlanması” və Palata Şurasının 2019-cu il 28 dekabr tarixli 316/3 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2020-ci il üçün Plan-qrafik”ə əsasən 2020-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinin monitorinqinə dair Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin sədri N.Yusifov tərəfindən hazırlanmış icmal-təhlili müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “2020-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinin monitorinqinə dair hazırlanmış icmal-təhlil” nəzərə alınsın (əlavə olunur).

2. 2020-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinin Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin (N.Yusifov) təqdimatı əsasında verilmiş qiymətləri aşağıdakı kimi təsdiq edilsin:

- 2 auditor təşkilatı keyfiyyətli – 5 balla:
  - “Nexia EA” QSC; (Direktor: Haqverdiyev Həsən Yaşar oğlu);
  - “RSM Azerbaijan” MMC (Direktor: Məhərrəmov Tural Musa oğlu)

- 5 auditor təşkilatı qənaətbəxş – 4 balla:
  - “Azəri-Audit auditor firması” MMC (direktor-auditor F.Y.Namazəliyev) – plandankənar
  - “NZA Audit” MMC (direktor-auditor N.N.Axundov);
  - “PSG TAX Consulting” MMC (direktor S.Ə.Məmmədov)
  - “Alfa – Audit” QSC (direktor – V.M.Musayev)
  - “Caspian Business Consultants” MMC (direktor-auditor R.K.Həsənov)

- 1 auditor təşkilatı və 2 sərbəst auditor qismən-qənaətbəxş – 3 balla:
  - “A Audit and Consulting” MMC (direktor – auditor R.Y.Əliyev);
  - Sərbəst auditor – Əliyev İbiş Müseyib oğlu;
  - Sərbəst auditor – Mikayılzadə Raqif Ramil oğlu (plandankənar)

- 2 auditor təşkilatı və 1 sərbəst auditor qeyri-qənaətbəxş – 2 balla:

- “İnternational Audit” MMC (direktor – E.Ə.Nabatov) (plandankənar);
- Sərbəst auditor – Seyidov Elnur Sabir oğlu (plandankənar);
- “Finexpert” MMC (Direktor: Cəbrayılov Həcət Cahangir oğlu)

3. 2020-ci ildə “qeyri-qənaətbəxş” (2) qiymətləndirilən aşağıdakı auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditora ciddi xəbərdarlıq elan edilsin və onlara tapşırılsın ki, apardıqları audit yoxlamaları zamanı Beynəlxalq Audit Standartlarına və digər qanunvericilik aktlarına riayət etsinlər:

- “İnternational Audit” MMC (direktor – E.Ə.Nabatov) (plandankənar);
- Sərbəst auditor – Seyidov Elnur Sabir oğlu (plandankənar);
- “Finexpert” MMC (Direktor: Cəbrayılov Həcət Cahangir oğlu)

4. Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (N.Yusifov) tapşırılsın ki, bu qərarın 3-cü bəndində adları qeyd edilən auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorun adları “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin plandankənar həyata keçirilməsi üzrə 2021-ci il üçün Plan-Qrafik”ə daxil edilsin.

5. Auditin hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsinə (E.İbrahimov), Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (N.Yusifov) tapşırılsın ki, auditor təşkilatlarının və sərbəst auditorların 2020-ci ildə apardıqları auditlər üzrə icrası başa çatmayan və ya icra olunmayan keyfiyyətə nəzarət ilə əlaqədar monitorinqlərin səbəbləri araşdırılsın və 2021-ci ilin Plan-qrafikinə daxil edilsin.

6. Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (N.Yusifov) tapşırılsın ki, “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2021-ci il üçün Plan-qrafik”ə uyğun olaraq işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi təmin edilsin.

7. Audit fayllarını Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin müffətişlərinə təqdim etməyən aşağıdakı auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara töhmət elan edilsin və nəzərlərinə çatdırılsın ki, bir daha belə hal təkrarlanarsa həmin auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətlərinin dayandırılması məsələsinə baxılacaq:

| Sıra №-si | Auditor təşkilatlarının və sərbəst auditorların adı |
|---|---|
| 1. | “AZAUDIT” MMC (Direktor: İsrəfilov Afiq Tofiq oğlu) |
| 2. | Çələbiyev Eldəniz Nazim oğlu (Sərbəst Auditor) |
| 3. | "BDO Azərbaycan" MMC (Direktor: Salayev Yunis Elxan oğlu) |
| 4. | "Moore Stephens Azerbaijan" MMC (Direktor: Əhmədov Fariz Nadir oğlu) |
| 5. | “Grant Thornton” MMC-nin AR-dakı filialı (Direktor: Farouk Mohamed) |
| 6. | "Forum" MMAM (Direktor: Səttar Aydın Səttar oğlu) |

| | |
|---|---|
| 7. | "G and A Audit" MMC (Direktor:Qafarov Səid Nadir oğlu ) |
| 8. | "EON AUDİT" MMC (Direktor: Ağayev Orxan Gülağa oğlu) |
| 9. | Həsənov Ülvi Dilqəm oğlu (Sərbəst Auditor) |
| 10. | "Best Audit" MMC (Direktor: Quliyev Anar Fizuli oğlu) |

8. Auditin hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsinə (E.İbrahimov), Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (N.Yusifov) tapşırılsın ki, bu qərarın 7-cı bəndində nəzərdə tutulan auditor təşkilatlarının və sərbəst auditorların "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2021-ci il üçün plandankənar Plan-qrafik"ə daxil edilməsi təmin edilsin.

9. Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin müfəttişləri (N.Axundov, N.Yusifov, S.Vəlizadə, E.İbrahimov, İ.Hacı-Əzizov) tərəfindən adları aşağıda qeyd olunan auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinin aparılmış monitorinqinin nəticələri rəsmiləşdirilərək qısa müddət ərzində həmin komitəyə təhvil verilsin.

| **Sıra №-si** | **Auditor təşkilatlarının və sərbəst auditorların adı** |
|---|---|
| 1. | "Biznes Audit" MMC (Direktor: Əliyev Məhərrəm Fayaz oğlu) |
| 2. | "KPMG Audit Azərbaycan" MMC (Direktor: Murat Karakaş) |
| 3. | İbrahimov Elnur Elxan oğlu (Sərbəst Auditor) |
| 4. | "Tax, Audit & Konsaltinq Servis" MMC (Direktor: Abbasova Lalə Fərman qızı) |
| 5. | Bəşirov Şərif Miri oğlu (Sərbəst Auditor) |
| 6. | "Azərbeynəlxalq audit xidməti" MMC (Direktor: Əhmədov Misir Zaman oğlu) |
| 7. | "RSM Azerbaijan" MMC (Direktor: Məhərrəmov Tural Musa oğlu) |
| 8. | İsayev Telman Mabud oğlu |
| 9. | "Kermur Audit və Konsaltinq" MMC (Direktor: Vahabov Adil İdris oğlu) |
| 10. | Axundov Vaqif Xəlil oğlu (Sərbəst Auditor) |
| 11. | "Victoryvvays Audit Consulting" MMC (Direktor: Əzizov Elşən Bəxtiyar ) |
| 12. | "Best Audit" MMC (Direktor: Quliyev Anar Fizuli oğlu) |

10. Bu qərarın və icmal-təhlilin mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**